

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 81 (23.493)

1 iyun 2020-ci il, bazar ertəsi

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


“İxrac ili” – 2020

## Muxtar respublikanın sosial-iqtisadi inkişafı həyata keçirilən islahatların məntiqi nəticəsidir



***Bu gün özünün sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş Azərbaycan Respublikasında regionlarda sahibkarlığın inkişafı təmin edilmiş, oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın davamlı inkişafına, əhalinin məşğulluğunun artmasına və ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasına nail olunmuşdur.***

Naxçıvan Muxtar Respublikasında da sosial-iqtisadi inkişafın sürətləndirilməsi ölkənin milli-iqtisadi təhlükəsizliyinin təmin edilməsinin başlıca, ilkin şərtlərindən biri kimi çıxış edir. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının ötən dövrdə muxtar respublika rəhbəri tərəfindən ardıcıl şəkildə həyata keçirilməsi, bütövlükdə, sosial-iqtisadi inkişafın müvəffəqiyyətini təmin etmiş, eyni zamanda muxtar respublikada yeni iş yerlərinin açılması, əhalinin gəlirlərinin artırılması, sosial infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində bir sıra uğurlu və məqsədyönlü islahatlar aparılmışdır. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən çoxşaxəli quruculuq tədbirləri, ictimai həyatın bütün fəaliyyət istiqamətlərində əsaslı nailiyyətlərin əldə olunmasını təmin etmişdir.

Ümumi inkişaf fonunda Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı və sosial həyatı özünəməxsusluğu ilə fərqlənir. İşğalçı Ermənistan Respublikasının Azərbaycan torpaqlarına hərbi təcavüzü nəticəsində ölkənin əsas hissəsindən ayrı düşərək iqtisadi və nəqliyyat əlaqələri baxımından blokada şəraitində yaşamağa məhkum olunmuş muxtar respublika mövcud çətinliklərə baxmayaraq, Azərbaycanda həyata keçirilən genişmiqyaslı quruculuq prosesində fəal iştirak edir. Sosial-iqtisadi inkişaf sahəsində muxtar respublikamızda irimiqyaslı müvəffəqiyyətlər əldə edilmişdir. Bütün bunlar iqtisadi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsulun artımında öz ifadəsini tapmışdır. Belə ki, 2020-ci il yanvar-mart aylarında ümumi daxili məhsulun istehsalı 548 milyon manatdan çox olmuş, onun adambaşına düşən həcmi isə 1192,1 manat təşkil etmişdir.

Muxtar respublika iqtisadiyyatının səmərəli strukturunun formalaşdırılması məqsədilə elmi əsaslara söykənən idxal-ixrac siyasətinin həyata keçirilməsi nəticəsində istehsalyönümlü sahibkarlığın inkişafına, son məhsul istehsalının artırılmasına, daxili bazarın, əsasən, yerli istehsal məhsulları hesabına təmin edilməsinə, yerli xammal və materiallardan istifadə əsasında istehsal potensialının gücləndirilməsinə iqtisadi stimul yaradılmışdır. Nəticə etibarilə, 2020-ci ilin ilk rübündə muxtar respublikada ötən ildəki dövrə nisbətən artım müşahidə edilmiş, 251 milyon 769 min 600 manat dəyərində məhsul istehsal olunmuş, 41 milyon ABŞ dollarından çox sənaye məhsulu ixrac olunmuşdur.

Naxçıvanda sənaye sahəsində həyata keçirilən islahatların başlıca məqsədi mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidən qurulmasından, yeni müəssisələrin yaradılmasından, sənaye məhsullarının artan istehsalının təşkilindən, təbii sərvətlərin və əmək resurslarının səfərbər edilməsi tədbirlərini həyata keçirməklə sənayenin dayanıqlı və davamlı inkişafını təmin etməkdən ibarət olmuşdur.

Bu dövr ərzində kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin yaradılmasına və bu əsasda da ixrac potensialının artırılmasına xüsusi diqqət yetirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən qəbul olunan dövlət proqramları, həyata keçirilən iqtisadi islahatlar kənd təsərrüfatının bütün sahələrinin dinamik inkişafına təkan vermişdir. Dövlət tərəfindən kənd təsərrüfatı istehsalçılarına subsidiyaların, güzəştli kreditlərin verilməsi, damazlıq heyvanların gətirilməsi və fermerlərə 50 faiz güzəştli qiymətlə satılması, müxtəlif növ kənd təsərrüfatı texnikalarının, texnoloji avadanlıqların lizinq yolu ilə təklif olunması bu sahədə həyata keçirilən tədbirlərin bariz nümunəsidir. Bütün bunlar ərzaq məhsullarının istehsalında artıma və hər bir vətəndaşın keyfiyyətli və təhlükəsiz ərzaq məhsullarına tələbatının tam ödənilməsinə şərait yaradır. Qeyd olunanlar sosial-iqtisadi inkişafı xarakterizə edən rəqəmlərdə də öz əksini tapmışdır. Belə ki, muxtar respublikada 2020-ci ilin ilk rübündə öncəki ilə nisbətən yenə artım müşahidə edilmiş, 29 milyon manatdan çox kənd təsərrüfatı məhsulu istehsal edilmiş, 12 milyon 153 min 500 ABŞ dolları dəyərində kənd təsərrüfatı məhsulları isə ixrac olunmuşdur.

Müvəffəqiyyətlə reallaşdırılan iqtisadi siyasət qısa tarixi dövr ərzində diyarımızda makroiqtisadi sabitliyin bərqərar olmasını təmin etmiş, iqtisadiyyatın artım dinamikasına təkan vermiş, əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. Sənaye müəssisələrinin fəaliyyəti bərpa edilmiş, rəqabətədavamlı sənaye məhsullarının istehsalının dəstəklənməsi və ixracyönümlü istehsal sahələrinin yaradılması ciddi şəkildə təşviq olunmuş, sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulması prosesi gücləndirilmiş, özəlləşdirmədən sonrakı mərhələdə müəssisələrin fəaliyyəti müntəzəm əsasda dəstəklənmiş, sənaye müəssisələrinin maliyyə vəsaitlərinə olan tələbatının ödənilməsi üçün səmərəli kredit mexanizmi qurulmuş, satış problemlərinin həlli üçün sistemli tədbirlər görülmüş, yerli və xarici bazarlara çıxış imkanları sadələşdirilmiş, dövlət strukturlarının sənaye, xüsusilə də yüngül və yeyinti sənayesi məhsullarına olan tələbatının ödənilməsi prosesi üzrə dövlət sifarişləri, ilk növbədə, yerli sənaye mallarına yönəldilmiş, elektroenergetika və təbii qaz infrastrukturu tamamilə yenilənmişdir.

Sosial-iqtisadi inkişafa bu cür kombinə edilmiş yanaşma və irimiqyaslı quruculuq proseslərinin nəticələri muxtar respublika iqtisadiyyatında və sosial sahədə əldə edilmiş uğurlara yenilərinin əlavə olunmasına təminat verir. Həyata keçirilən məqsədyönlü tədbirlər, elmi nəzəriyyəyə və təcrübəyə söykənən konsepsiya əsasında aparılan köklü iqtisadi islahatlar, qəbul olunmuş dövlət proqramlarının uğurlu icrası onu deməyə əsas verir ki, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı gələcəkdə də öz dinamikasını artan templə qoruyub saxlayacaqdır.

**Əşrəf ƏLƏKBƏROV**
***Naxçıvan Dövlət Universitetinin dosenti***

## Nazirlər Kabineti qərarlar qəbul edib

Nazirlər Kabinetində may ayı ərzində bir sıra qərarlar qəbul edilib. Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 iyun tarixli 72 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında dövlət tərəfindən yaradılan peşə təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”ndə dəyişiklik edilərək qanunvericiliyin tələblərinə riayət etməklə, iaşə xidməti, tibbi və psixoloji xidmət təşkil edilməsi qərara alınmışdır. Həmçinin 16 may tarixində Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikasında dövlət tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” 2019-cu il 3 iyun tarixli 71 nömrəli və “Naxçıvan Muxtar Respublikasında dövlət tərəfindən yaradılan peşə təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi barədə” 2019-cu il 3 iyun tarixli 72 nömrəli qərarlarında dəyişiklik edilmişdir.

Nazirlər Kabinetinin 2013-cü il 1 iyul tarixli 66 nömrəli Qərarı ilə təsdiq edilmiş “Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin Siyahısı”nda da dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən uşaqları tərbiyə, müalicə, əhaliyə sosial xidmət və digər analoji müəssisələrdən götürməkdən, habelə tərbiyə etməkdən və ya hüquq və mənafelərini müdafiədən imtina etməsi barədə valideynlərin notarial qaydada təsdiq edilmiş ərizəsi tələb edilir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Sənaye Məhəlləsində tikinti işləri sürətlə aparılır

***Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur bu gün müasir Azərbaycan rayonudur. Rayon mərkəzi, bölgənin kəndləri füsunkar bir gözəlliyə qovuşub, yenilənib, müasirləşib. Kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması istiqamətində həyata keçirilən quruculuq tədbirləri bəhrələrini verib.***

Təkcə 2020-ci ilin ötən dövründə inşası başa çatdırılan və hazırda davam etdirilən obyektlərə diqqət yetirmək kifayətdir ki, rayonda həyata keçirilən quruculuq tədbirlərinin coğrafiyası barədə təsəvvürə malik olaq. Belə ki, rayonda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün 2020-ci ilin birinci rübündə bütün maliyyə mənbələrindən əsas kapitala 7 milyon 166 min 300 manat həcmində vəsait yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş vəsait 6 milyon 932 min 100 manat təşkil edib. Bəhs olunan dövrdə rayonda 13 müxtəlif təyinatlı obyekt tikilib, yenidən qurulub və ya əsaslı təmir olunub.

Cari ilin aprel ayında rayon mərkəzində Mərasim evi və dini icma üçün iş otaqlarının, “Çomaxtur” elektrik yarımstansiyasının, may ayında isə Məmmədsabir kəndində kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının, Muğancıq-Mehrabda kənd və xidmət mərkəzlərinin, tam orta məktəb binasının, feldşer-mama məntəqəsinin tikilib istifadəyə verilməsi şərurlularda böyük sevinc hissi yaradıb.

Hazırda 20-dək ünvanda müxtəlif istiqamətli tikinti və ya yenidənqurma işləri həyata keçirilir. Onlardan biri Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanına əsasən bölgədə inşası aparılan Sənaye Məhəlləsidir. Məlumat üçün bildirək ki, ötən il dekabr ayının 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Şərur Sənaye Məhəlləsinin yaradıldığı əraziyə gəlib, görülən işlərlə tanış olub, tikinti işlərinin layihəyə uyğun aparılması, daha çox tələbat olan məhsulların istehsalına üstünlük verilməsi, mühəndis-texniki tələblərə əməl olunması barədə tapşırıqlar verib.

Qeyd edək ki, Sənaye Məhəlləsində ilkin olaraq bitki yağı, ofis ləvazimatları, kağız-torba və corab istehsalı sahələri yaradılacaq. Məqsəd tələbatın müəyyən hissəsini yerli istehsal hesabına ödəmək, əhalinin məşğulluq səviyyəsini artırmaqdır. Tikinti işlərinin keyfiyyətlə aparılması, obyektlərin vaxtlı-vaxtında təhvil verilməsi üçün inşaatçılara hərtərəfli şərait yaradılıb. Texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunur. İnşaat işləri başlanandan əhalinin məşğulluğunun da artırılmasına imkan yaranıb.

Sənaye Məhəlləsində yerli tikinti materiallarından istifadəyə üstünlük verilir. Qısa müddət ərzində həyata keçirilən tədbirlər belə deməyə əsas verir ki, obyektlərin tikintisi nəzərdə tutulmuş vaxtda başa çatdırılacaq.

✍ **Muxtar MƏMMƏDOV**

## Yaz əkinlərinin mütəşəkkilliyi bol məhsuldan xəbər verir



Bərəkətli və məhsuldar torpaq sahələri olan Culfa rayonunda torpaq mülkiyyətçiləri yenə də böyük həvəslə sahələrə çıxıblar. Artıq Culfa rayonunun aran kəndlərində yaz-tarla işləri aparılıb, dağ kəndlərində isə əkin işləri davam etdirilir.

Culfa Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, 31 may tarixədək bölgədə 431,2 hektarda şum qaldırılıb, 399,9 hektar sahədə yazlıq əkin keçirilib. 42,2 hektarda tərəvəz əkilib ki, bunun da 6,4 hektarı soğan, 0,2 hektarı sarımsaq, 35,6 hektarı digər bitkilərdir. Bundan əlavə, 120,5 hektarda yazlıq arpa, 100,1 hektarda çoxillik otlar, 1 hektarda noxud, 12,5 hektarda kartof, 0,4 hektar sahədə yerfıstığı, 1,1 hektarda isə lobya əkilib. Culfa rayonunda bostan bitkilərinin əkini də diqqətdə saxlanılıb. Aldığımız məlumata görə, hələlik 118,7 hektar sahədə tərəvəz əkilib.

Məlumatda bildirilir ki, hazırda Culfa rayonunun təsərrüfatçıları əkin sahələrində suvarma işlərini davam etdirirlər.

Əvvəlki illərdə olduğu kimi, bu il də rayonun taxılçılıqla məşğul olan təsərrüfat adamları yerli şəraitə uyğun məhsuldar buğda sortlarının əkininə üstünlük verirlər. Torpaq mülkiyyətçiləri əlverişli keçən hava şəraitindən istifadə edərək mövsümü uğurla başa vurmağa çalışırlar. Bütün bunlar belə deməyə əsas verir ki, rayonda yaz əkinləri optimal müddətdə başa çatdırılacaq və yüksək məhsul üçün zəmin yaradılacaqdır.

✍ **Pərviz HACILI**



Dövlət proqramı icra olunur

# Naxçıvanda xalça sənəti yaşadılır

***Ölkəmizdə xalçaçılığın çox qədim tarixi vardır. Bu sənət sahəsi əsrlərboyu sənətkarlar üçün ən gəlirli məşğuliyyət növlərindən olmuş, Azərbaycan xalçaları bütün dünyada özünəməxsus ornamentləri ilə seçilmişdir. Xalqın qədim tarixi ənənələrinin yaşadılmasında mühüm vasitələrdən biri olduğu üçün bu gün xalça sənətinin inkişafına xüsusi diqqət yetirilir. Azərbaycan xalça sənəti tarixində Naxçıvan xalçaları xalqın mədəni irsinin, incəsənətinin və məişət tərzinin yaşadılması baxımından xüsusi yer tutur.***





Muxtar respublikada bu sahənin qorunmasına və inkişaf etdirilməsinə dövlət qayğısı göstərilir. Təsadüfi deyil ki, Naxçıvan xalçaçılıq məktəbinin bərpası və öyrənilməsi üçün 1998-ci ildə Naxçıvan Dövlət Xalça Muzeyi yaradılaraq fəaliyyətə başlamış və muxtar respublikada xalçaçılıq ənənələrinin yaşadılması ilə bağlı tədbirlər ardıcıl xarakter daşımışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" bu tədbirlərin sistemli xarakter almasına şərait yaradır. Proqramın icrası nəticəsində xalçaçılıq ənənələrinin qorunması, xalça istehsalının və ixracının genişləndirilməsi, bu sahədə məşğulluğun artırılması, xalça sənətinin inkişafının təmin olunması kimi nəticələrə nail olunması qarşıya qoyulmuşdur.

Dövlət proqramında 14 bənddən ibarət tapşırıqlar nəzərdə tutulmuşdur. 2020-ci ilin yanvar-mart aylarında əllə xalçatoxuma sənəti sahəsində unudulmaqda olan ənənələrin, bədii-texniki iş üsullarının, xalça çeşnilərinin bərpası və inkişaf etdirilməsi diqqət mərkəzində olmuşdur. "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Xalq Yaradıcılığı Emalatxanasında 3, Cəlilkənd Buxxanasında isə 2 xalça toxunmuş, 4 xalçanın və Sədərək rayonunda yerləşən xalçatoxuma müəssisəsində 5 xalçaçı tərəfindən milli ornamentli qədim çeşnilər əks olunan xalçaların toxunuşu davam etdirilmişdir.

Xalçaçılıq sahəsi üzrə sənətkarların bədii-texniki iş üsullarının təbliğinə diqqət artırılmış, əmək bazarının tələbinə uyğun milli və xalq tətbiqi sənəti növləri üzrə Xalq Yaradıcılığı Emalatxanasında müdavimə xalçaçılıq sahəsi üzrə bədii və texniki iş üsulları öyrədilmişdir. Həmçinin bu məqsədlə peşə kurslarının keçirilməsi üçün "Tədris planı" hazırlanmışdır.

Xalçaçılıq sahəsini inkişaf etdirmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması da davam etdirilmişdir. Muxtar respublikada xalçaçılığın inkişafı, öz növbəsində, yeni iş yerlərinin də yaradılmasına səbəb olur. Cari ilin birinci rübündə "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Naxçıvan şəhərində xalça istehsalı müəssisəsinin, yun və boyaq bitkilərinin tədarükü məntəqəsinin yaradılması davam etdirilmişdir.

Dövlət proqramının icrasına uyğun olaraq yaradılmış əllə toxunmuş xalçaların reyestrinə daxil edilmək üçün yanvar-mart aylarında 28 xalçanın pasportlaşdırılması ilə bağlı işlər həyata keçirilmişdir.

Naxçıvan xalçaçılıq məktəbinin gələcək nəsillərə çatdırılması üçün bu sahədə peşə təhsilinin dəstəklənməsi və elmi-tədqiqat işlərinin artırılması xüsusi əhəmiyyətə malikdir. Ötən dövrdə bu məqsədlə Naxçıvan Regional Peşə Tədris Mərkəzində 19 qadından ibarət xalçaçı kursu təşkil edilmiş, Naxçıvan xalçaçılıq məktəbinin elmi cəhətdən və sistemli şəkildə araşdırılması, yeni elmi nəşrlərin hazırlanması, xalçaçılıq sahəsində unudulmaqda olan ənənələrin bərpası diqqətdə saxlanılmışdır. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin təsdiq olunmuş elmi-tədqiqat planına əsasən Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda "Naxçıvanda xalçaçılığın inkişaf tarixi mərhələsi" üzrə tədqiqatlar aparılmışdır. Bölmənin əməkdaşları aparılan tədqiqatlarla bağlı 2020-ci ilin 18-19 yanvar tarixlərində Türkiyə Respublikasının Mardin şəhərində keçirilən 3-cü Beynəlxalq Elmi Araşdırmalar Konqresində çıxış etmişdir.

"Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrası muxtar respublikada bu sahədə maddi-mədəni irsin mühafizəsi ilə bağlı yeni imkanlar yaradır.

**"Şərq qapısı"**

# Ədəbi əlaqələrin inkişafına töhfə vermiş naxçıvanlı ziyalı

***XIX əsrin sonu, XX əsrin əvvəllərində rus-Azərbaycan ədəbi əlaqələrinin inkişaf etdirilib möhkəmləndirilməsində, bu əlaqələrin şifahi və mətbu yollar vasitəsilə təbliğində Abbasqulu ağa Bakıxanov, Abbas Səhhət, Abdulla Şaiq kimi sənətkarlarla yanaşı, Naxçıvanın yaradıcı ziyalılarının da misilsiz xidmətləri olmuşdur. Hələ inqilabdan əvvəl və ondan sonrakı dövrlərdə Eynəli bəy Sultanovun rus və Qərbi Avropa ədəbiyyatından Azərbaycan dilinə, Azərbaycan, Şərq yazılı və şifahi xalq ədəbiyyatı nümunələrindən isə rus dilinə etdiyi tərcümələr geniş oxucu kütləsinin diqqətini cəlb edirdi. Həmin dövrlərdə Mirzə Cəlil Şürbi Mirzəyevin İvan Andreyeviç Krılovun təmsillərindən etdiyi tərcümələr Naxçıvanın maarifçi ziyalılarında rus ədəbiyyatına olan maraq hissini artırırdı.***


КЕШКУЛЪ
№ 1

1906-cı ildə Əsədulla bəy Şahtaxtlının "Əsli və Kərəm" dastanını geniş şəkildə ilk dəfə böyük yaradıcılıq həvəsi ilə rus dilinə tərcümə edərək "Kaspi" qəzetinin səhifələrində rus oxucularına çatdırması ədəbi ictimaiyyətin dərin marağına səbəb olmuşdur. Bu nəcib və xeyirxah işin ilk təşəbbüskarlarından olan Naxçıvanın yaradıcı ziyalıları etdikləri tərcümələrlə yanaşı, həmin tərcümələrə geniş təhlil verərək şərh etmiş, ədəbiyyatın ideya-estetik prinsiplərini, onun məfkurəvi istiqamət və qayəsini, cəmiyyətin dünyagörüşünün formalaşmasında oynadığı əxlaqi-tərbiyəvi rolunu aydınlaşdırmağa çalışmış və bu məqsədlə də Azərbaycan və rusdilli mətbuat orqanlarından istifadə etmişlər.

Belə tərcüməçilərdən biri də rus və Qərbi Avropa ədəbiyyatına böyük maraqgöstərən, Nikolay Alekseyeviç Nekrasovdan ilk dəfə Azərbaycan dilinə şeir tərcümə edən naxçıvanlı ziyalı Gülməhəmməd bəy Kəngərli olmuşdur. Araşdırmalar göstərir ki, Gülməhəmməd bəy II Kərim Sultan Kəngərlinin oğul nəvəsi olan Cəfərqulu bəyin oğludur.

"Kəşkül"qəzetinin ədəbi ictimaiyyətdə tutduğu mövqe, onun ədəbi əlaqələrin inkişaf etdirilməsi və bu məqsədlə Qərb ədəbiyyatından edilən tərcümələrə öz səhifələrində yer verməsini nəzərə alan Gülməhəmməd bəy Kəngərli 1885-ci ildə Nikolay Alekseyeviç Nekrasovun "Nravstvennıy çelovek" ("Xoşəxlaq insan") əsərini "Mərdi-müttəqi" ("Dindar adam") başlığı altında tərcümə edib "Kəşkül"ün redaksiyasına göndərmiş, həmçinin qəzetin mühərririnə genişhəcmli bir məktub da yazmışdır. Gülməhəmməd bəy Kəngərli "Kəşkül"ün bu nəcib və xeyirxah məramını alqışlamış və öz tərcüməsi ilə mühərrirə rus və dünya ədəbiyyatından edilən tərcümələrə qəzetin səhifələrində daha geniş yer verməsini tövsiyə etmişdi. Bu xeyirxah tövsiyə təsadüfi deyildi. Çünki Kəngərli rus və dünya ədəbiyyatının mütərəqqi ənənələrini mənimsəmiş, Rusiyanın və Qərbi Avropanın qabaqcıl sənətkarlarının əsərlərində, özünün dediyi kimi,"bir hikmət və bir mərifət və təsfiyeyi-əxlaq üçün bir dərsi-ibrət" hissi duymuş, "Kəşkül"ün mühərririnə yazmışdı:

"Mühərrir əfəndi!

"Kəşkül"ün aradabir çıxan nüsxələrində bəzən şeir və kəlami-mənzum dəxi görürəm. Məzkur qəzetdə bu qismi açmaqda məqsudiniz bizim müsəlman şüəra asarını cəm eləmək isə, mənim tərcümələrimi də o qismə daxil qılınız. Mən bizim indiki müsəlman şairlərimiz kimi şeirgu deyiləm və onların mənasız şeirlərini oxumağa həvəsnak olanlardan dəxi deyiləm. Bu səbəbdən nəzmən və ya nəsrən elədiyim tərcümələrim əhli-Qərb şairləri asarından ibarət olacaqdır. Zira bunların kəlamlarında bir hikmət, bir mərifət və təsfiyeyi-əxlaq üçün bir dərsi-ibrət vardır".

Bu qeydlərdən aydın olur ki, Gülməhəmməd bəy yalnız Nekrasovdan və ümumiyyətlə, rus ədəbiyyatından deyil, Qərbin mütərəqqi şair və nasirlərinin də əsərlərindən tərcümələr edirmiş. Həmin qeydlərin sonrakı sətirlərində onun sənət haqqındakı ədəbi-nəzəri görüşləri ilə də tanış oluruq. Bu hissədə müəllif özünün ədəbi inkişafın müasir tələblərinə olan müsbət münasibətini şərh edərək güldən-bülbüldən yazan, ədəbi inkişafla ayaqlaşa bilməyən köhnə qəzəl və təriqət şairlərinin sxolastik yaradıcılıq üslubunu pisləyir, onları məzmun və ideya etibarilə zamanın tələblərinə cavab verən ictimai xarakterə malik müasir ruhlu aktual, realist əsərlər yazıb-yaratmağa, rus və Qərb müəlliflərinin ədəbi irsinə marağı artırmağa səsləyir və yazırdı:

"...Amma bizim şairləri görürsən ki, gülü mül, bülbülü sümbül, meyü neydən qafiyəsənclik edir, bir şeir deyir, sonra mənasını bətnində hifz ilə əlfazını divanına qeyd edir və belə şeirlərin sanı yeddi olacağın "Müşfiq" və "Müxlis" kimi bir təxəllüsünü dəxi axırıncı beytə daxil qılır və bu növdən olan əfkarı-pərişanını qəzəl adlandırmaqla səhrayi-zühura çıxardır, "buyurunuz, əfkarımı alınız", – deyir.

Bir cümlə bunu demək istəyirəm ki, qəzetənin o qismində əhli-Qərb əsərindən alınma əşara yer verəsiniz, daha faydalı olar. Təcrübə üçün məruf Nekrasovun mənzumatından nəzmən tərcümə elədiyim bir fəqərəni bu dəfə irsal edirəm. Qəbul və dərc olunarsa, məbadini dəxi göndərəcəyəm".

Gülməhəmməd bəy Kəngərlinin bu qeyd və şərhindən sonra Nekrasovun dörd hissədən ibarət olan "Nravstvennıy çelovek" əsərinin birinci hissəsinin tərcüməsi verilirdi. Lakin müəllif orijinalın 10 misradan ibarət olan birinci hissəsini 16 misra daxilində tərcümə etmişdir. Bu tərcümədə onun tərcümə prinsiplərinə bələdçiliyini, yaradıcılıq sahəsindəki səriştəsini və təsvir olunan hadisəyə yaradıcı münasibətini müəyyən etmək olur. Maraqlıdır ki, müəllif tərcümədə orijinalın ümumi süjet xəttini saxlamaqla yanaşı, şeirdəki məna və məzmun çalarlığını da oxucuya olduğu kimi çatdırmağa müvəffəq olmuşdur.

Müəllif orijinaldakı poetik üslubi məziyyətləri və şeirdəki əsas qayəni saxlamaq üçün həm sərbəst, həm də sətri tərcümə prinsiplərindən istifadə etmişdir. Belə ki, tərcümənin əvvəlində Nekrasovun bir misra daxilində ifadə etdiyi müəyyən bir fikri tərcüməçi orijinalda olduğu kimi bir misrada ifadə edir. Lakin sonrakı misralarda sətri tərcümə üsulundan sərbəst tərcümə üsuluna keçən müəllif orijinalın bir misrasında ifadə olunan fikri ondan fərqli olaraq iki misra daxilində verir ki, bu da orijinalla tərcümənin müqayisəsində bir növ pərakəndəlik yaradır. Lakin bütün bunlar Gülməhəmməd bəy Kəngərlinin orijinalın məna və məzmun ardıcıllığını tərcümənin vəzn tələblərinə uyğunlaşdırmaq təşəbbüsündən və şeirdəki əsas ideyanı saxlamaq meylindən irəli gəlir. Odur ki, sərbəst və sətri tərcümə üsulundan istifadənin nəticəsi olaraq yaranmış poetik pərakəndəlik tərcümənin vəzninə və ümumi qayəsinə qətiyyən xələl gətirmir.

Gülməhəmməd bəy xüsusi poetik istedada malik professional tərcüməçi olmamış, o, yalnız ədəbiyyatımızın ümumi inkişafı naminə bir mütərcim kimi bu sahədə çalışmağı özünə vətəndaşlıq borcu hesab etmişdir. Təsadüfi deyildir ki, o, tərcüməni "qəbul və dərc olunarsa, məbadini dəxi göndərəcəyini" vəd etsə də, "Kəşkül"ün sonrakı nömrələrində tərcümənin ardına rast gəlmirik. Görünür, qəzetin mühərriri olan Cəlal Ünsizadə əsərin Nekrasovdan Azərbaycan dilinə edilən ilk tərcümə olmasını nəzərə alıb onu çap etmiş, lakin senzor tərcümənin ardının çapını qadağan etmişdir. Çünki o dövrdə həm "Kəşkül"ün özü təqib olunur, həm də əsrin sonlarında inqilabi əhval-ruhiyyənin artması ilə əlaqədar olaraq Nekrasov kimi sənətkarların ədəbi irsi izlənirdi. Lakin bu təqiblərə baxmayaraq, Kəngərlinin Nekrasov irsinin Azərbaycan dilinə tərcüməsində atdığı ilk addımdan sonra XX əsrin əvvəllərində böyük rus şairinin ədəbi irsinə olan maraq artmış, 1911-ci ildə Əli Səttar İbrahimov Gülməhəmməd bəy Kəngərlidən sonra ikinci dəfə Nekrasovun "Nesjataya polosa" ("Sıxılmamış zolaq") şeirini tərcümə edərək "Yeni füyuzat" jurnalının 10-cu nömrəsində dərc etmişdir. Bir qədər sonra Cəlil Məmmədquluzadənin özü də "Molla Nəsrəddin" məcmuəsində Nekrasovun ədəbi qəhrəmanlarından nümunələr gətirərək azərbaycanlı qadınların da Nekrasovun qəhrəmanları kimi olması fikrini təbliğ etmişdir. Abdulla Şaiq isə şairin "S rabotı" ("İşdən dönərkən"), "Nesjataya polosa", "Şair və vətəndaş", "Şaxta, çovğun, qırmızıburun" əsərlərindən tam və yarımçıq parçalar tərcümə etmişdir. Nəhayət, XX əsrin böyük romantik şairi olan Abbas Səhhət özünün "Şair, şeir pərisi və şəhərli" poemasını bilavasitə Nekrasovun "Şair və vətəndaş" əsərinin təsiri ilə qələmə almışdır.

Araşdırmalardan belə nəticəyə gəlmək olar ki, bu tərcümə Gülməhəmməd bəy Kəngərlinin birinci və sonuncu tərcüməsi deyildir. Çünki müəllif özü də məktubunda "tərcümələrim əhli-Qərb şairləri asarından ibarət olacaqdır", – deyə özünün tərcüməçilik təşəbbüsündə olmasına zəmanət verirdi. Lakin təəssüflə qeyd edək ki, bu maraqlı şəxsiyyətin həyatı və yaradıcılığı bu vaxtadək tədqiq olunmamışdır. Doğrudur, Əziz Mirəhmədov, Alməmməd Alməmmədov və digər tədqiqatçı alimlər Nekrasov ədəbi irsindən bəhs edərkən Gülməhəmməd bəy Kəngərlinin də adını çəkmiş, lakin onun həyatı, yaradıcılığı və şəxsiyyəti haqqında ayrıca bəhs olunmamışdır. Məhz buna görə də Gülməhəmməd bəy Kəngərlinin hərtərəfli tədqiq edilib öyrənilməsi Azərbaycanda bədii tərcüməçilik sənətinin inkişaf yolunun öyrənilməsi baxımından da ədəbi ictimaiyyətimiz üçün faydalı olar.

**Əsgər QƏDİMOV**
***filologiya üzrə elmlər doktoru, professor***

*1 iyun Uşaqların Beynəlxalq Müdafiə Günüdür*

# Muxtar respublikada uşaqlar dövlət qayğısı ilə əhatə olunublar



***Dünyanın əksər ölkələrində olduğu kimi, ölkəmizdə də hər il iyun ayının 1-i Uşaqları Beynəlxalq Müdafiə Günü kimi qeyd olunur.***

Ölkəmizdə uşaqlara qayğının dövlət siyasətinin əsas istiqaməti kimi müəyyənləşməsi ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. ***"Azərbaycan gəncləri, uşaqları ölkəmizin, xalqımızın milli sərvətidir, gələcəyidir və ümididir. Ona görə də uşaqlara qayğı göstərmək hər bir vətəndaşın borcudur. Çünki bugünkü uşaqlar müstəqil Azərbaycanın gələcəyidir"***, – deyən ulu öndər Heydər Əliyevin ikinci dəfə müstəqil Azərbaycana rəhbərliyi dövründə dövlət uşaq siyasətinin hüquqi əsasları formalaşdırılmışdır. Ümummilli liderin ölkəmizə rəhbərliyinin hər iki dövründə uşaqlara xüsusi diqqət yetirməsi, səhiyyə, mədəniyyət, təhsil, idman ocaqlarının, məktəbdənkənar, məktəbəqədər və müvafiq sahəni əhatə edən digər sosial təsisatlar şəbəkəsinin qurulması, genişləndirilməsi uşaqların təhsilinə və sağlamlıqlarının qorunmasına öz müsbət təsirini göstərmişdir.

Bu gün dövlət uşaq siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Uşaqların icbari dispanserizasiyası haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası qanunlarının qəbul edilməsi, təhsil qanunvericiliyində, sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı qanunvericilik sistemində yeni təminatların təsbit edilməsi dövlətin uşaqlara olan diqqətinin göstəricisidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Uşaqlar cəmiyyətimizin sabahıdır. Onların qayğısız böyüməsi, yüksək standartlara cavab verən təlim-tərbiyə və tibbi xidmətlərlə təmin edilməsi, əlverişli sosial mühitdə fiziki və mənəvi baxımdan sağlam yetişməsi, habelə öz istedadlarını nümayiş etdirmələri üçün zəruri şəraitin yaradılması bizim əsas məqsədlərimizdəndir"***.

Naxçıvan Muxtar Respublikasında da uşaqlara hərtərəfli diqqət və qayğı göstərilir. Uşaqların təhsili, sağlamlıqlarının qorunması, istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtının və tərbiyəsinin düzgün təşkili, cəmiyyətin ictimai-mədəni həyatındakı iştiraklarının təmin edilməsi məqsədilə mühüm tədbirlər həyata keçirilir. Həmçinin sosial qayğıya ehtiyacı olan uşaqların ehtiyaclarının hərtərəfli təminatı, reabilitasiyası, onların yüksək mənəvi mühitdə, milli dəyərlər əsasında tərbiyəsi, təhsil alaraq layiqli şəxsiyyət kimi yetişməsi diqqət mərkəzində saxlanılır. Bu gün muxtar respublika əhalisinin 35 faizi və ya 164 min 546-sı uşaqlardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"O cəmiyyət möhkəmdir ki, o dövlət inkişaf edərək irəli gedir ki, o xalq xoşbəxt gələcəyə malikdir ki, orada uşaqlara qayğı var"***. Muxtar respublikada uşaqların təhsili daim diqqət mərkəzində saxlanılır, bir-birinin ardınca istifadəyə verilən müasir maddi-texniki bazaya malik təhsil ocaqları təhsilin keyfiyyətini yüksəldilməsinə, yüksəkixtisaslı kadr potensialının artırılmasına şərait yaradır. Müstəqillik illərində muxtar respublikada 200-dən çox ümumtəhsil məktəbi tikilmiş və ya yenidən qurularaq istifadəyə verilmişdir. Ümumtəhsil məktəblərində 670-dən çox elektron lövhə quraşdırılmışdır. Bu da uşaqların müasir təhsil sistemi əsasında biliklərə yiyələnməsinə şərait yaratmışdır. Bunun nəticəsidir ki, ötən il ümumtəhsil məktəblərini bitirmiş şagirdlərdən 1720-si ali, 580-i isə orta ixtisas təhsili müəssisələrinə, Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 180-i müxtəlif ali hərbi məktəblərə daxil olmuşdur.



*Naxçıvanqala Tarix-Memarlıq Muzey Kompleksində 1 iyun – Uşaqların Beynəlxalq Müdafiə Gününə həsr olunmuş festival – 2017-ci il*

Uşaqların fiziki cəhətdən sağlam böyüməsi də diqqətdə saxlanılır. Muxtar respublikada müasir standartlara uyğun olimpiya idman kompleksləri, üzgüçülük və şahmat mərkəzləri, uşaq-gənclər şahmat məktəbləri, uşaq-gənclər idman məktəbləri, stadionlar, peyntbol meydançası, ümumtəhsil məktəblərində müasir idman zalları istifadəyə verilmişdir. Yaradılan şəraitin nəticəsidir ki, hazırda muxtar respublikada 26 mindən çox uşaq idmanla məşğul olur.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanına uyğun olaraq "Gənc istedadların "Qızıl kitabı"nın yaradılması, 11 istedadlı uşağın adının bu kitaba yazılması və onlara xüsusi təqaüdlərin verilməsi istedadlı uşaqlara göstərilən qayğının daha bir ifadəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamı da gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasına xidmət edir.

Uşaqların sağlamlıqlarının qorunması ilə bağlı həyata keçirilən tədbirlərin nəticəsi olaraq uşaq tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, müasir avadanlıqlarla təchiz edilməsi, yeni texnologiyaların tətbiqi, tibbi kadrların peşə səviyyəsinin artırılması və əhali arasında geniş maarifləndirmə işinin aparılması istiqamətlərində mühüm addımlar atılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyasının keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın qəbul olunması bu sahədə atılan mühüm addımlardan biridir. Həyata keçirilən tədbirlər nəticəsində uşaqlar arasında infeksion xəstəliklər və ölüm səviyyəsi nəzərəçarpacaq dərəcədə azalmışdır.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar da hər zaman diqqət mərkəzində saxlanılır, onlara qayğı ilə yanaşılır. Himayə və qəyyumluğa verilən uşaqların evlərində mütəmadi olaraq monitorinqlər təşkil olunur, yaşayış şəraitləri öyrənilir, zəruri ehtiyacları üçün lazımi köməklik göstərilir. Bu kateqoriyadan olan uşaqlara dövlətin göstərdiyi diqqət və qayğının nəticəsidir ki, 2019-cu ildə ümumtəhsil məktəblərini bitirmiş uşaqlardan 4-ü ali təhsil müəssisələrinə qəbul olmuşdur.

"Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"na uyğun olaraq Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı təşkil olunmuş, indiyədək 29 mindən artıq uşaq haqqında fərdi məlumatlar banka daxil edilmişdir.

Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, onların təhsili və reabilitasiyası da səmərəli təşkil edilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası daim nəzarətdə saxlanılır, uşaqlar məktəbəqədər, ümumtəhsil, peşə və məktəbdənkənar təhsil müəssisələrinə cəlb edilir. Hazırda ümumtəhsil məktəblərində müvafiq kateqoriyadan olan 1048, Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə 10, Distant Tədris Mərkəzində 11 uşaq təhsil alır. Bundan əlavə, həmin kateqoriyadan olan uşaqların məktəbəqədər tərbiyəsinin təşkili sahəsində görülən işlərin nəticəsidir ki, 2019-2020-ci tədris ilində 9 uşaq Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində, 193 uşaq isə ümumtəhsil məktəblərində fəaliyyət göstərən məktəbəqədər hazırlıq qruplarında, məktəbəqədər təhsil müəssisələrində, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin defektoloji bölmələrində tədrisə cəlb edilmişdir.

2019-2020-ci tədris ilinin əvvəlində məktəb yaşı çatan sağlamlıq imkanları məhdud uşaqlardan 83-ü ümumtəhsil müəssisələrinin birinci siniflərinə, 6-sı distant tədrisin birinci sinfinə, 2-si isə Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbə cəlb edilmişdir. Bundan əlavə, 59 uşaq şahmat məktəblərinə, 126 uşaq məktəbdənkənar müəssisələrin dərnəklərinə, 168 uşaq isə idman məktəblərinə cəlb edilmişdir. Komitə tərəfindən ötən il 735 sağlamlıq imkanları məhdud uşaqla əlaqə saxlanılmış, 74 uşaq məktəbəqədər, məktəb, məktəbdənkənar təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə yönləndirilmişdir. Bu ilin ötən dövründə 190 sağlamlıq imkanları məhdud uşağın valideynləri ilə əlaqə yaradılmış, 10 uşaq məktəbəqədər, məktəbdənkənar təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə cəlb olunmuşdur.

Sağlamlıq imkanları məhdud uşaqlar arasında müxtəlif yarış və müsabiqələrin keçirilməsi onların asudə vaxtlarının səmərəli təşkili ilə yanaşı, istedadlarının üzə çıxarılmasında, əqli və fiziki inkişafları baxımından da mühüm əhəmiyyət kəsb edir. Həmin kateqoriyadan olan uşaqların tarixi abidələrə, muzeylərə, istehsal və emal müəssisələrinə ekskursiyaları təşkil edilir, onlar arasında əyləncəli idman oyunları, yarışlar və müsabiqələr keçirilir, film, konsert proqramı və tamaşalar nümayiş olunur. Müvafiq kateqoriyadan olan uşaqların iştirakı ilə konsert proqramı, rəsm və əl işlərindən ibarət sərgilər təşkil edilir, Ağbulaq İstirahət Mərkəzində istirahətləri təmin olunur.

Uşaq ədəbiyyatı uşaqların vətənpərvərlik ruhunda böyüməsində, milli dəyərlərimizi mənimsəməsində və dünyagörüşlərinin formalaşmasında əsas vasitələrdəndir. Buna görə də muxtar respublikada müasir ədəbiyyat bazasına malik olan elektron kitabxanalar istifadəyə verilir, uşaqların asanlıqla qavraya biləcəkləri kitablar nəşr olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi ilə "Uşaqlar və Günəş" almanaxı, "Gəncliyimiz-gələcəyimiz", "Təmsillər", "Şeir və hekayələr", "Şeirlər", "Poema və pyeslər", "Naxçıvan bəstəkarlarının uşaq mahnıları", "Sevimli dostlarım kitablar", "İstedadlı şagirdlər" adlı kitabların nəşr olunması uşaqlarda mütaliəyə marağı artırmışdır.

Sevindirici haldır ki, uşaqlara göstərilən diqqət və qayğının nəticəsində muxtar respublikada dövlət uşaq müəssisələrində valideynləri tərəfindən tərk edilmiş, məktəbdən yayınan, erkən nikaha və cinayət məsuliyyətinə cəlb olunmuş uşaq yoxdur.

*Uşaqlar xalqımızın gələcəyidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Əgər xalqımızın, dövlətimizin gələcəyini düşünürüksə, bu gələcəyin təminatçısı olan uşaq və gənclərin sağlam mühitdə yetişməsi qayğısına qalmalı, onların təlim-tərbiyəsi ilə ciddi məşğul olmalıyıq"***.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Sağlamlıq imkanları məhdud uşaqlarla görüş



Görüş 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə keçirilib. Sosial könüllülər əvvəlcə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində müvafiq kateqoriyadan olan uşaqlara göstərilən xidmətlərlə tanış olublar. Könüllülər əmək terapiyasında iştirak edib, uşaqlara yeni əl işlərinin hazırlanmasında köməklik göstəriblər.

Sonra uşaqların istəyinə uyğun olaraq könüllülər Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinə gəliblər. Burada uşaqlar qum terapiyası, bədii tikiş və robotexnika otaqlarının imkanlarından istifadə edib, rəqs nömrələri göstəriblər.

Tədbir yeni salınan Sahil Parkında gəzinti ilə başa çatıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Gənc alim beynəlxalq sosial layihədə iştirak edib



AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, Prezident mükafatçısı, gənc yazar Nərgiz İsmayılovanın Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) EPIC layihəsinin iştirakçıları ilə görüşü olub.

Gənc alim aztəminatlı ailələrə və qaçqınlara sosial dəstək çərçivəsində təşkil olunan "Xərçəng xəstəliyinin həyatımıza təsiri", "Xərçəng xəstəliyinə dair yazılan kitablar" mövzularında vebinar keçib.

Vebinarda ağdamlı gənclərlə yanaşı, yaşlı nəslin nümayəndələri də iştirak ediblər.

Qeyd edək ki, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) 2011-ci ildə yaradılıb. Cəmiyyət 1995-ci ildən Azərbaycanla sıx əməkdaşlıq edir. Ağdam üzrə Sosial Komponent layihə rəhbəri Məhbubə Musayeva, "Xərçəng xəstəliyinin həyatımıza təsiri", "Xərçəng xəstəliyinə dair yazılan kitablar" mövzularında layihə rəhbəri Əfsanə Əliyevadır.

Təlim əsnasında gənc yazarın xərçəng xəstələrinə dəstək üçün qələmə aldığı "Qardələn", yeni kitabı "Metakədər" və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun görkəmli mütəfəkkir Nemətullah Naxçıvani yaradıcılığının öyrənilməsi və tədqiq edilməsi məqsədilə imzaladığı 2018-ci il 29 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən Nərgiz İsmayılova tərəfindən tərcümə edilərək Azərbaycan ictimaiyyətinə təqdim olunan "Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə" əsəri də müzakirə olunub.

Sonda Nərgiz İsmayılova vebinar iştirakçılarının mövzuya və Naxçıvana dair suallarını cavablandırıb.

***AMEA Naxçıvan Bölməsinin Beynəlxalq əlaqələr və informasiya şöbəsi***

# Uşaqlar nurlu sabahımız, xoşbəxt gələcəyimizdir

*Uşaqlar hər bir xalqın, dövlətin ən qiymətli sərvəti, gələcəyi, hər evin, ailənin bəzəyidirlər. Elə buna görə də tarixboyu hər bir dövlət və cəmiyyət gələcəyi olan uşaqların qayğısına qalmağı, onların fiziki və mənəvi cəhətdən böyüməsini təmin etməyi özünün ən ümdə vəzifələrindən biri hesab edir. Uşaqların hüquqlarının qorunması, onların layiqli vətəndaş kimi formalaşdırılması hər bir dövlətin başlıca sosial məsuliyyətlərindəndir. Ölkəmizdə uşaqlara qayğının dövlət siyasətinin əsas istiqaməti kimi müəyyənləşdirilməsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər hələ ötən əsrin 70-ci illərində ölkəmizə rəhbərliyi dövründə uşaqlara xüsusi diqqət yetirmiş, həmin vaxt səhiyyə, mədəniyyət, təhsil ocaqlarının, məktəbdənkənar müəssisələrin şəbəkəsinin genişləndirilməsi uşaqların təhsilinə, dünyagörüşlərinin zənginləşdirilməsinə və sağlamlıqlarının qorunmasına öz təsirini göstərmişdir.*

Görkəmli dövlət xadimi deyirdi: ***"Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır".***

Sevindirici haldır ki, bu gün muxtar respublikamızda uşaqlar üçün yaradılan şərait nümunə göstəriləcək səviyyədədir. 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ərəfəsində istedadları ilə seçilən bir neçə uşaqla həmsöhbət olduq.




Şərur rayon Oğlanqala kənd sakini ***Fədayə Hüseynova*** karate-do idman növü ilə məşğuldur. Ailədəki iki qız övladın kiçiyi olan Fədayənin idmana sevgisi uşaqlıq illərindən yaranıb. Fədayə deyir ki, atasının idmanla mütəmadi məşğul olması hələ kiçik yaşlarından onda da bu sahəyə maraq yaradıb. Dərslərinə həvəslə yanaşan kiçikyaşlı bu çevik və cəsur qızın arzusu gələcəkdə bu idman növü üzrə respublikamızı təmsil etmək, bayrağımızı dalğalandırıb, himnimizi səsləndirməkdir. O, böyüyəndə müəllim olmaq istəyir.

Beş yaşından başlayaraq idmanla məşğul olan Fədayə onu da bildirir ki, qazandığım uğurlarda atamla bərabər müəllimimin də zəhməti çoxdur. Onların köməyi olmasa, heç bir uğur qazana bilməzdim. Birinci sinfə gedəndə ilk müəllimimiz əlimizdən tutub yazmağı, oxumağı necə öyrədirsə, karatenin sirlərini də bu ixtisas müəllimi öyrədir. Karateni öyrənməyə başlayanda bir az çəkinsəm də, atamın və müəllimimin köməyi ilə bütün çətinliklərin öhdəsindən gəldim. Yaxşı bir idmançı olmaq, böyük uğurlar qazanmaq üçün zəhmət çəkmək, iradəli olmaq lazım gəldiyini öyrəndim.

Onu da deyim ki, bu balaca qızın uğurları da az deyil. O, Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr edilmiş oğlan və qızlar arasında karate-do üzrə Naxçıvan şəhər açıq birinciliyində 10-11 yaş qrupunda 35 kiloqram çəki dərəcəsi üzrə Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü münasibətilə qızlardan ibarət "Naxçıvan", "Şərur" və "Ordubad" komandaları arasında karate-do üzrə yoldaşlıq görüşündə 3-cü, ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş karate-do üzrə "Heydər Əliyev kuboku" uğrunda keçirilən "Naxçıvan Open" Beynəlxalq turnirində isə birinci yerə layiq görülüb.

***Kamal Qafarov*** Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin VIII sinif şagirdi, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində Robotexnika dərnəyinin üzvüdür. Kamal deyir ki, uşaq yaşlarından bu sənətə marağı olub. Ona alınan oyuncaqlara baxaraq yenilərini qurmağa çalışıb və bu marağı



sahəyə həvəsi günü-gündən artıb. Eşidəndə ki, adıçəkilən mərkəzdə Robotexnika dərnəyi fəaliyyət göstərir, o da bu dərnəyə üzv olmaq üçün müraciət edib. Məşğələlərə başladığı ilk günlərdən Kamal qabiliyyət və bacarığı ilə seçilib. Müxtəlif əl işləri yaradıb. Bu işlər sırasında yükdaşıyıcı, zəka kubiki quran, xətt izləyən robotlar diqqətimizi cəlb edir. Bu əl işləri 2020-ci ildə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunan "İstedadlı şagirdlər" adlı albom-kataloqda da yer alıb. Həmin əl işləri mərkəzdə təşkil olunmuş sərgidə nümayiş etdirilir. Hazırda Kamal ən böyük robotexnika yarışı olan Dünya Robot Olimpiadasının seçmə turuna hazırlaşır. O həm də dörd yaşından şahmatla məşğul olur, üçüncüdərəcəli şahmatçıdır və muxtar respublikada keçirilən yarışlarda iştirak edərək bir sıra uğurlar qazanıb.

Kamal oxuduğu məktəbdə də öz istedadı ilə seçilir. O, dərs əlaçısıdır və sınaq imtahanlarında 10-dan çox diploma layiq görülüb. Ötən il fizika fənni üzrə "Evrika" adlı yarışda birinci yeri tutub, Amerika Birləşmiş Ştatlarında onlayn keçirilən riyaziyyat olimpiadasında sertifikatla mükafatlandırılıb, Naxçıvan Muxtar Respublikası üzrə təşkil edilən riyaziyyat olimpiadasında birinci yerə layiq görülüb. Bu istedadlı yeniyetməmizin gələcək arzusu memar olmaqdır və bunun üçün çox çalışdığını deyir. O, yaradıcılıq mərkəzində Memarlıq-dizayn dərnəyinə də yazılıb. "Naxçıvan hotel" adlı layihə hazırlayıb və bu layihənin uğur qazanacağına inanır.

Anası Kəmalə Qafarova belə yeniyetmə və gənclərin istedad və bacarıqlarının üzə çıxmasına şərait yaratdığı üçün dövlətimizə minnətdarlığını bildirir.

4 ildir ki, sərbəst güləşlə məşğul olan ***Ələkbər Əsgərov*** muxtar respublika və şəhər birinciliklərində, eləcə də İran İslam Respublikasında təşkil olunan beynəlxalq turnirdə mükafatçılar sırasına düşməyi bacarıb. Azyaşlı güləşçimizin ən böyük arzusu isə ölkə birinciliyinin qalibi olub, Azərbaycanı beynəlxalq arenalarda layiqincə təmsil etməkdir: "Güləşi seçməyimin əsas səbəbi atamın da bu idman növü ilə məşğul olmasıdır. Demək olar ki, ilk müəllimim də məhz atamdır. 6 yaşımdan Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbində Faiq İsgəndərovun rəhbərliyi altında




məşqlərə başlamışam. Məşqçinin verdiyi bütün tapşırıqları səhvsiz yerinə yetirməyə çalışıram. Çətinliyim olduğu zaman məşqçilər, eləcə də təcrübəli güləşçilərimiz köməklik edirlər. Məşqçimiz hər zaman bizə məşqlərə daha məsuliyyətlə yanaşmağı tapşırır. Bu idman növünə olan marağım hədsiz olduğu üçün elə ilk yarışımda da mükafat qazanmağa nail olmuşam, bütün birinciliklərdə ön yerlərə çıxmağa çalışıram. Ən böyük uğurum İran İslam Respublikasında keçirilən beynəlxalq turnirdə qazandığım qələbə olub. İlk dəfə idi, belə böyük turnirdə mübarizə aparırdım. Bu məni həyəcanlandırdığı kimi həm də qarşımda böyük məsuliyyət qoymuşdu. Turnirdə uğur qazanıb Naxçıvan güləş məktəbinin ənənələrini layiqincə təmsil etməyi düşünürdüm. Keçirdiyim bütün görüşləri qələbə ilə başa vuraraq turnirin qalibi oldum. Bu, təkcə mənim yox, eyni zamanda məşqçilərimizin, bizə bu sahədə köməklik edən hər bir kəsin qələbəsi idi".

Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbin 5-ci sinfində təhsil alan Ələkbər Əsgərovun fikrincə, qazandığı uğurların əsas səbəbi doğma diyarımızda idmançılar üçün yaradılan şəraitdir: "Məşq etməyimiz üçün zalımızda hər bir şərait var. Bununla yanaşı, Güləş Federasiyası keçirilən bütün turnirlərdə, yarışlarda iştirakımızı təmin edir. Biz də çalışırıq ki, göstərilən etimadı doğruldaq və muxtar respublikamızı layiqincə təmsil edək".

Naxçıvan Qarnizonu tam orta məktəbinin 7-ci sinif şagirdi ***Elcan Mirələmov*** Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzindəki Dulusçuluq dərnəyinin üzvüdür. Qədim sənət sahələrindən olan dulusçuluğa böyük maraq və həvəsi olduğunu söyləyən müsahibim qeyd edir ki, televiziyada dulusçuluq haqqında sənədli filmləri izlədikcə, tarix dərsliklərimizdə onunla bağlı məlumatları öyrəndikcə bu sənətə böyük marağım yarandı. Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində belə bir dərnəyin fəaliyyət göstərdiyini öyrənəndə çox sevindim və bu sahəyə marağımı nəzərə alan valideynlərim məni dərnəyə üzv yazdırdılar. Biz burada müxtəlif dulusçuluq nümunələri hazırlayırıq. Onu da qeyd edim ki, bu həm də çox əyləncəli bir sahədir. Mən gələcəkdə də ikinci sənət kimi dulusçuluqla məşğul olmaq istəyirəm.



Elcanın atası Elşad Mirələmov deyir ki, bu gün müstəqil Azərbaycanın uşaqları çox xoşbəxtdirlər. Ona görə ki, uşaqlarımızın bütün hüquq və azadlıqları təmin olunur. Onların gələcəkdə dünyagörüşlü, intellektli, vətənpərvər bir insan kimi yetişməsi üçün hərtərəfli şərait yaradılıb. Mən də bir valideyn olaraq çox xoşbəxtəm ki, övladım müstəqil Azərbaycan dövlətində yaşayır, böyüyür və təhsil alır.

**Ramiyyə ƏKBƏROVA**
**Ceyhun MƏMMƏDOV**
**Güntac ŞAHMƏMMƏDLİ**
**Pərviz HACILI**

## Komanda-qərargah məşqi keçirilib

"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən birləşmə və hissə qərargahlarının cəlb edilməsi ilə müdafiə əməliyyatına hazırlığın təkmilləşdirilməsi üzrə komanda-qərargah məşqi keçirilib.

Əlahiddə Ümumqoşun Orduda keçirilən növbəti birgə komanda-qərargah məşqində əsas diqqət qoşunların qısa zamanda döyüşə hazır olmasının təmin edilməsi üzrə tapşırıqların icrasına yönəldilib.

Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi və resursları nəzərə alınmaqla birləşmə və hissələrin komplektləşdirilməsinin yeni bir modeli üzərində tapşırıqlar dəqiqləşdirilib.

Komanda-qərargah məşqində komandir və qərargahların yaranmış əməliyyat şəraitində qərar qəbuletmə vərdişləri təkmilləşdirilib.

**Nəriman NƏCƏFOV**

## Əhalinin quşçuluq məhsullarına olan tələbatı ödənilir

Muxtar respublikada əhalinin etibarlı ərzaq təminatında quş əti məhsulları və yumurta istehsalı üzrə ixtisaslaşmış müəssisələrin böyük payı var. Belə ki, əhalinin belə ərzaq məhsullarına olan tələbatı tamamilə yerli istehsal hesabına ödənilir.




Muxtar respublikada quşçuluq təsərrüfatı üzrə ixtisaslaşmış istehsal müəssisələrindən biri də "Araz-3" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Müəssisədə quş əti və yumurta ilə yanaşı, damazlıq yumurta və cücə istehsalı sahələri də fəaliyyət göstərir.

Cari ilin fevral ayında ailə və fərdi təsərrüfatların damazlıq yumurta və cücəyə olan tələbatını ödəmək məqsədilə müəssisə tərəfindən "Serebrist" sort damazlıq yumurta gətirilərək xüsusi nəzarət altında inkubatora yerləşdirilmiş, ətlik və yumurtalıq damazlıq cücə çıxarılaraq satılmışdır.

"Araz-3" MMC-də ətlik, yumurtalıq "Serebrist" və digər sort cücələrin satışı həyata keçirilməkdədir. Qeyd etmək lazımdır ki, yumurtalıq sort cücələr il ərzində 330 yumurta verə bilir. Ətlik broyler cücələrin isə çəkisini 45 gün ərzində 2 kiloqrama qədər artırmaq mümkündür.

Hazırda müəssisədə 15 min "Serebrist" sort damazlıq yumurta inkubatora qoyulmuş, cücələrin inkubatordan çıxımı davam edir. Müəssisə tərəfindən istehsal olunan cücələrin muxtar respublikanın rayon və kənd mərkəzlərində satışı həyata keçirilir.

Ailə təsərrüfatları və sahibkarlıq subyektləri "Serebrist" damazlıq cücələrin alışı ilə bağlı "Araz-3" Məhdud Məsuliyyətli Cəmiyyətinə müraciət edə bilərlər.

*Əlaqə telefonu: (036) 554-21-20*

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyası

### *2020/2021-ci tədris ili üçün təhsilin bakalavriat səviyyəsinə kursant (tələbə) qəbulu elan edir*

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına 2020/2021-ci tədris ili üçün qəbula namizədlər

*– boyu 170 santimetrdən az olmayan,*

*– tam orta təhsilli və ya tam orta məktəbin buraxılış sinfində oxuyan,*

*– 15 sentyabr 2020-ci ilədək 17 yaşı tamam olan,*

*– yaxud müddətli həqiqi hərbi xidmətini başa vuraraq ehtiyata buraxılmış və 15 sentyabr 2020-ci ilədək 23 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir.*

Akademiyaya qəbul olmaq arzusunda olanlar Fövqəladə Hallar Nazirliyinin Xüsusi həkim ekspertiza komissiyasından və Fövqəladə Hallar Nazirliyi tərəfindən qəbul edilmiş qaydalara müvafiq olaraq fiziki hazırlıq və seçmə komissiyalarında sınaqdan keçməlidirlər.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı test imtahanlarında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir. Qəbul imtahanı test üsulu ilə I ixtisas qrupuna daxil olan fənlər üzrə keçirilir.

Test imtahanlarının keçirilməsi qaydaları ilə Dövlət İmtahan Mərkəzinin internet saytında və kütləvi informasiya vasitələrində verilən elanlarda tanış olmaq olar.

Akademiyaya qəbul olunan şəxslər təhsil müddətində yemək, geyim forması və yataqxana ilə təmin olunur, təqaüd alırlar.

Akademiyada təhsil müddəti 4 ildir. Tədris Azərbaycan dilində aparılır.

Akademiyanın məzunlarına müvafiq olaraq Yanğın təhlükəsizliyi mühəndisliyi və Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi ixtisasları üzrə "bakalavr" ali-peşə ixtisas dərəcəsi verilir. Onlar zabit və ya orta rəis heyəti rütbələri verilməklə Fövqəladə Hallar Nazirliyi sistemində vəzifələrə təyinat alırlar.

Akademiyaya qəbul olmaq istəyənlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- *tərcümeyi-hal (abituriyentin şəxsən özü tərəfindən yazılmış);*
- *şəxsiyyət vəsiqəsinin və doğum haqqında şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surəti;*
- *hərbi biletin və ya hərbi xidmətə çağırış məntəqəsinə təhkimedilmə vəsiqəsinin əsli və notarial qaydada təsdiq olunmuş surəti;*
- *tam orta məktəbdən, işlədiyi təqdirdə iş yerindən və ya hərbi hissədən xasiyyətnamə;*
- *tam orta təhsil haqqında sənədin əsli və notarial qaydada təsdiq olunmuş surəti, yaxud tam orta məktəbin buraxılış sinfində oxuması haqqında müəyyən olunmuş formada arayış;*
- *yaşayış yerindən arayış (daimi qeydiyyat yerində yaşamadığı halda);*
- *xüsusi həkim ekspertiza komissiyasına təqdim olunması üçün yaşayış yeri üzrə ruhi-əsəb, narkoloji, dəri-zöhrəvi, vərəm dispanserlərindən və QİÇS haqqında arayışlar, qeydiyyat yeri üzrə poliklinikaya son 5 il ərzində müraciətləri haqqında qısa epikriz;*
- *4 ədəd 6x4 sm ölçüdə rəngli fotoşəkil (ağ fonda, tünd rəngli pencəkdə).*

***Sənədlər 2020-ci il iyun ayının 1-dən 26-dək (bazar günləri istisna olmaqla) saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsində (Naxçıvan şəhəri, Ə.Əliyev küçəsi $5^{C}$) qəbul ediləcək. Əlaqə telefonu: (036) 544-57-32***

### *İtmişdir*

Əliyeva Şəbnəm Qiyasalı qızının adına Naxçıvan şəhər 15 nömrəli tam orta məktəb tərəfindən 2005-ci ildə verilmiş B-158630 nömrəli attestat itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çəmənli kəndində yaşamış Hüseynov Elçin Cəlil oğlunun adına olan JN-$137^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur şəhəri, S.İsmayıl küçəsi $4^{A}$-da yaşamış Həsənova Ümbülbəni Tağı qızının adına olan torpaq sahəsinin A-005431 nömrəli planı və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 388